# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına “say həddinin” sözlərindən sonra “, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin)” sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər)” təsdiq edilsin (əlavə olunur).”;

1.3. 3-cü hissədə “10080 (on min səksən)” sözləri “31466 (otuz bir min dörd yüz altmış altı)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxs bu Qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 yanvar 2024-cü il

№ 40

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2019-cu il 17 aprel
tarixli 175 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər)**

| Sıra №-si | Vəzifələrin adı | Əməkhaqlarının məbləği | |
|---|---|---|---|
| | | aylıq vəzifə maaşı (manatla) | mükafat (manatla) |
| 1. | Direktor | 2100 | İl ərzində 2 (iki) aylıq vəzifə maaşı həcmində |
| 2. | Direktor müavini | 1850 | |
| 3. | Şöbə müdiri | 1500 | |
| 4. | Baş mütəxəssis, baş mühasib | 1300 | |
| 5. | Aparıcı mütəxəssis | 1150 | |
| 6. | Mütəxəssis | 1000 | |

---